# Azərbaycan Tibb Universitetinin Fizioterapiya və tibbi reabilitasiya kafedrasının İnkişaf startegiyası

# KAFEDRANIN İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

1. Tədris olunan fənnlər üzrə tədris metodik işlərinin hazırlanması, təşkili və tələb olunan yüksək səviyyədə yerinə yetirilməsi

2. Kafedrada ixtisasa uyğun olaraq elmi tədqiqat işlərinin aparılması

3. Elmi və tədris fəaliyyəti üçün gənc kadrların hazırlanması

4. Pediatriyada reabilitasiya, Ortopediyada reabilitasiya, Nevroloji reabilitasiya, kardiovaskulyar reabilitasiya, İdman tibbi və reabilitasiya ixtisasları üzrə 2 illik təhsil əsasında magistr hazırlığı

5. Fizioterapiya və tibbi bərpa ixtisası üzrə rezident hazırlığı.

6. Doktorantura pilləsində doktorant hazırlığı

7. Respublikanın sanator-kurort müəssisələrində çalışan mütəxəssislər üçün metodik tövsiyələrin hazırlanması

# Tədris-metodiki işlər üzrə

1. Yüksək ixtisaslı bacarıqlı mütəxəssislər hazırlamaq məqsədi ilə tədrisi müasir standartlara uyğun təşkil olnması üçün tələbələrin nəzəri və təcrübi bacarıqların artırılması

2. Türkiyə Cumhuriyyətinin müxtəlif universitetlərinin və Çexiya Respublikasının Karlovı Varı Universitetinin müvafiq ixtisas üzrə təhsil proqramlarının uyğunlaşdırılmış formada hazırlanması və tədris prosesində işlədilməsi

3. Tədris materiallarının yeni elmi naliyyətlərə uyğun olaraq elektron tədris materialı kimi yenilənməsi

4. Qabaqcıl ali təhsil müəssisələrində istifadə olunan tədris və tədris metodiki ədəbiyyata uyğun olaraq bakalavr, magistratura və rezidentura pilləsində tədris olunan fənlərə uyğun tədris vəsaitlərinin hazırlanması

5. Müxtəlif elmi tədqiqat institutlarının və dünyanın müxtəlif universitetlərinin uyğun olan kafedraları ilə elmi və tədris əlaqələrinin daha da inkişaf etdirilməsi

6. Kafedranın professor-müəllim heyətinin ixtisas üzrə elmi ən son nailiyyətləri ilə tanış olmaq məqsədi ilə təlimlərdə fəal iştirak etmək

7. Kafedra əməkdaşlarının xarici dillər üzrə dil bacarıq səviyyələrini yüksəltmək

8. Bakalavrların, magistrlərin və rezidentlərin ixtisasa uyğun olaraq peşə vərdişlərini dahada dərindən mənimsəmək üçün qabaqcıl yüksək təchizatlı tibb müəssisələrində peşə təcrübələrini keçmələrini təmin etmək

9. Tələbələrin elmi tədqiqt işlərinə maraq oyatmaqları üçün onların tələbə elmi cəmiyyətində və ATUREK- də tezis və məqalələrin çap olunması və çıxışlarını təmin etmək

# Kafedranın elmi tədqiqat işi

1. Respublikamızın müalicəvi təbii amillərinin müxtəlif patalogiyaların Fizioterapiya və tibbi reabilitasiyada tətbiqinin öyrənilməsi

2. Kafedra əməkdaşlarının müxtəlif xarici ölkə universitetlərinin ixtisasa uyğun olan kafedraları ilə elmi tədqiqat işlərinin aparılması

3. Aparılmış elmi tədqiqat işlərinin naliyyətlərinin Beynalxalq indeksləşdirilmiş elmi mətbuatda nəşri

4. Kafedra əməkdaşlarının müxtəlif elmi tədbirlərdə iştirakı və müxtəlif ixtisasartırma kurslarında iştirakı

## Maddi-texniki bazanın yaxşılaşdırılması

- Kafedranın nəzdində təcrübə dərslərinin aparılması üçün tədris laboratoriyasının təşkili
- Mühazirə zallarının və təcrübə dərs otaqlarının müasir texnologiyaların imkan verdiyi avadanlıqlarla təchizi
- Fizioterapiya və tibbi reabilitasiyada istifadə olunan yeni avadanlıqlarının alınması və mənəvi cəhətdən köhnəlmişləri dəyişdirilməsi